*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 2* *ISSN 2663-4368*
*Səhifə: 59-64* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.2.59*

## Azadə Rüstəmovanın şəxsiyyəti və yetişdiyi elmi mühit

**Nərmin Rzayeva**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Qərbi Kaspi Universiteti
rzayeva.nk@gmail.com

**Annotasiya:** Məqalə professor Azadə Rüstəmovanın şəxsiyyətinin formalaşdığı elmi mühitin mahiyyətini, onun yetişdiyi ailə, təhsil və elmi çevrənin təsir mexanizmini araşdırır. Müəllif vurğulayır ki, hər bir yaradıcı ziyalının formalaşmasında ailə, sosial mühit və intellektual çevrə həlledici rol oynayır. Bu kontekstdə Azadə Rüstəmovanın həm mənəvi dünyasının, həm də elmi düşüncəsinin əsasları təhlil olunur. O, ziyalı nəsildə yetişmiş, şərqşünaslıq ənənələrinin davam etdiyi bir çevrədə böyümüşdür. Azadə xanımın şəxsiyyəti-incə, düşüncəli, təvazökar və estetik duyumu, güclü alim obrazı təqdim olunur. Məqalədə həmin dövrün elmi mühiti də təsvir edilir: Heydər Hüseynov, Məmməd Arif, Həmid Araslı, Məmməd Cəfər, Mirzə İbrahimov kimi nəhəng elm xadimlərinin fəaliyyət göstərdiyi İnstitutda Azadə Rüstəmova klassik Azərbaycan ədəbiyyatının araşdırılmamış qatlarına yönəlmiş, özünəməxsus araşdırma xətti formalaşdırmışdır. Sonda müəllif vurğulayır ki, Azadə Rüstəmovanın elmi yolunun başlanğıcı ədəbi-tarixi irsin kompleks tədqiq olunduğu bir dövrə təsadüf etmiş, bu mühit onun həm şəxsi, həm də elmi kimliyinin formalaşmasında mühüm rol oynamışdır. Məqalə göstərir ki, Rüstəmovanın elmi dünyagörüşü, klassik irsə verdiyi önəm və tədqiqat üslubu həm ailə, həm də milli elmi mühitin birgə məhsuludur.
**Açar sözlər**: Azadə Rüstəmova, elmi mühit, ədəbi mühit, alim, şəxsiyyət.

**Məqalə tarixçəsi:** göndərilib – 17.11.2025; qəbul edilib – 15.12.2025

## The Personality of Azada Rustamova and the scientific environment of her formation

**Narmin Rzayeva**

**Abstract:** The article examines the essence of the scientific environment that shaped the personality of Professor Azada Rustamova and analyzes the impact of her family background, education, and intellectual circle on her development. The author emphasizes that the formation of any creative intellectual is decisively influenced by the family environment, social context, and intellectual surroundings. Within this framework, the foundations of Rustamova's spiritual world and scholarly thinking are explored. She grew up in an intellectual family, in a milieu where traditions of Oriental studies continued to flourish. Azada khanum's personality is portrayed as refined, thoughtful, modest, aesthetically perceptive, and embodying the characteristics of a strong scholar.
The article also describes the scientific atmosphere of the period: at the Institute where eminent scholars such as Heydar Huseynov, Mammad Arif, Hamid Arasli, Mammad Jafar, and Mirza Ibrahimov worked, Azada Rustamova directed her research toward unexplored layers of classical Azerbaijani literature and established her own distinct scholarly trajectory. The author concludes that the beginning of Rustamova's academic career coincided with a period when literary and historical heritage was studied comprehensively, and this environment played a significant role in shaping both her personal and scholarly identity. The study demonstrates that Rustamova's academic worldview, her commitment to classical heritage, and her research style are products of the combined influence of family traditions and the national scientific milieu.
**Keywords:** Azada Rustamova, scientific environment, literary environment, scholar, personality.

**Article history:** received – 17.11.2025; accepted – 15.12.2025

## Giriş / *Introduction*

Hər bir fərdin şəxsiyyət kimi yetişməsində doğulub boya-başa çatdığı ailə, doğmaları, yaxın çevrəsi, təmasda olduğu və yaşadığı mühit müstəsna rol oynayır. Bu mənada fiziki, mədəni mühitlə yanaşı, sosial mühitin ilkin başlanğıcı olan və bəzən mikro-mühit adlandırılan ailənin yaradıcı ziyalının formalaşmasına əsaslı şəkildə təsir göstərdiyini heç bir vəchlə danmaq olmaz. Mühitlə şəxsiyyət bir-biri ilə daimi, fasiləsiz əlaqə və təmasda olan anlayışlardır.

Ədəbi və yaxud ədəbi-mədəni mühit ədəbiyyatşünaslıqda, ictimai-humanitar və kulturoloji sahələrdə işləklik qazanan istilahlardan hesab olunur. Bir anlayış kimi ədəbi mühit daha artıq səviyyədə bədii yaradıcılıq sahəsində fəaliyyətləri ilə yadda qalan sənətkarların yetişdiyi yeri, məkanı şəraiti və ədəbi çevrəni nəzərdə tutur. Elmi dövriyyədə buna adekvat olan ədəbi-mədəni mühit də işlədilir. Çünki ədəbiyyatın özü incəsənətin xüsusi bir növü olmaqla yanaşı, həm də mədəni bir ab-havanın nəticəsində yaranan, özünəməxsus yaradıcılıq hadisəsidir. Təbii ki, bir çox hallarda bu mühit ədəbi-bədii əsərlərin elmi təhlil süzgəcindən keçirən ədəbiyyatşünaslara da şamil edilir. Əlbəttə, ədəbi zövqün formalaşması yazıçı-sənətkar üçün nə dərəcədə əhəmiyyətlidirsə, bir o qədər də ədəbiyyatşünaslıq sahəsində çalışanlar, fəaliyyət göstərənlər üçün də eyni dərəcədə zəruri tələb hesab olunur. Daha çox yazıçı-sənətkarların mühiti ilə yanaşı, ona paralel olaraq işlənən anlayışlardan biri də müasirləridir. Bu, o deməkdir ki, yaradıcı şəxsiyyətin yetkin bir səviyyəyə gəlib çatmasında müasirləri də, yaradıcılıq əlaqəsində və sıx təmasda olduğu ədəbi şəxsiyyətlər də müstəsna rol oynayır. Ancaq onu da nəzərə almaq lazımdır ki, elmi mərkəzlərdə, xüsusən elmi-tədqiqat müəssisələrində formalaşan mühiti ədəbi mühit adı altında təqdim etmək təbii ki, məntiqi baxımdan düzgün deyil. Bu mühiti elmi mühit və yaxud elmi-nəzəri mühit adlandırmaq daha doğru və düzgün yanaşma hesab oluna bilər. Təbii ki, burada ədəbiyyat və sənət məsələlərini özündə yığcam şəkildə formulə edən ədəbi təyinatından da sərf-nəzər edilməsi doğru olmazdı, bunu ədəbi-bədii nümunənin elmi təhlil və yanaşması, tədqiqat mövzusu və predmeti tələb edir.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, professor Azadə Cəfər qızı Rüstəmova (1932-2005) şəxsiyyət və xarakterində, mənəvi dünyasında bu dəyişməz dəyərləri təcəssüm etdirən, yüksək insani keyfiyyətləri ilə seçilən nəcib insan, ədəbiyyatşünaslıq elminə böyük töhfələr verən yorulmaz bir tədqiqatçı kimi tanınır və etiraf olunur.

Azadə xanımın şəxsiyyəti ilə elmi fəaliyyətini tamamlayan və məntiqi cəhətdən bir-biri ilə uzlaşdıran elə səciyyəvi məqamlar var ki, onların üzərindən sükutla keçmək olmaz. Əslində şəxsiyyət və fəaliyyət anlamı Azadə xanımın fərdi insani keyfiyyətlərinə, xarakteri etibarilə heç bir kəslə müqayisə olunmayacaq bənzərsiz portretinə qeyri-adi rəng qatan, çalarlar gətirərək bütövləşdirən, hamıya sevdirən anlayışlardır. Şübhəsiz ki, qoşa qanad kimi bir ömür boyu bir-birini tamamlayan bu anlayışlar Azadə Rüstəmovanın nəcib insani hiss və düşüncələri, zəngin və çoxcəhətli elmi axtarışları, elmi-təşkilati istedad və bacarığı barədə yetərincə fikir bildirməyə də geniş imkan verir.

Estetika sahəsinə həsr olunan yazıların müəllifi kimi də tanınan, filologiya elmləri doktoru, professor Gülrux Əlibəylinin bu baxımdan Azadə Rüstəmovanın şəxsiyyəti və elmi-nəzəri fəaliyyəti haqqında irəli sürdüyü mülahizələr özünün maraq doğuran məqamları ilə yadda qalır. O, həmkarı və müasirinin şəxsi-insani keyfiyyətləri, elmi fəaliyyəti barədə bəhs etməmişdən əvvəl haqqında bəhs edəcək şəxsin dilindən səsləndirilən fikir və düşüncələri məqaləsi üçün bir epiqraf kimi seçir: *"Buludlu, çiskinli sakit havanı çox xoşlayıram – belə hava mənə kədər qarışıq bir təskinlik gətirir... Düşüncəm, hərəkətim, görkəmimlə öz daxili "mən"imi razı salan vaxtlar çox xoşbəxtəm"* [1, s. 105].

Sonra müəllif Azadə Rüstəmovanın portretindən boylanan incə, sezilməyən təbəssümündən bəhs edərək öz qənaətlərini irəli sürür: *"Həyatın faniliyi, çox şeyin əbəs olması, ötəriliyi – bunları dərkin nişanəsidir o təbəssüm. Fəlsəfi məna gizlənir onda. Əslində, Azadə xanım həyatsevər, nikbin insandır. Amma bu nikbinlik gözəçarpan, zahirən işıqlanan nikbinlik deyil. Dünyanı, təbiəti, insanları, həyatı özünə,*

*öz xarakterinə uyğun şəkildə - çox incə, həssas, həlim bir tərzdə sevənindir o nikbinlikdir"* [1, s. 106].

Şübhəsiz ki, Azadə Rüstəmovanın bir şəxsiyyət kimi formalaşmasında ailə dəyərlərinin müstəsna rolu olmuş, Bakının nümunəvi təhsil ocaqlarından olan sonralar Hüseyn Cavidin adını daşıyacaq 132 saylı orta məktəbdə təhsil illəri, xüsusən orada xarici dil fənni kimi tədris olunan Şərq dillərinə marağın yaranması, həmin təhsil müəssisəsini qızıl medalla bitirərək Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin – N. R.) şərqşünaslıq fakültəsinin fars dili bölməsinə daxil olması bir-birinə dəstək olan, bir-birinə cığır açan tale və ömür yolunun enişli-yoxuşlu dolayları haqqında müəyyən təsəvvür yaradır. Azadə Rüstəmovanın elmi biliklərə səylə yiyələnməsinin, məxsusi olaraq şərqşünaslıq sahəsinə ciddi maraq göstərməsinin ailə və nəsil çevrəsindən gələn bir ənənə və təsirlə bağlı olması barədə bioqrafik qeydlərdə diqqəti cəlb edən faktlara rast gəlinir.

Alimlə uzun müddət birgə elmi fəaliyyət göstərən, Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun doğma divarları arasında əməkdaşlıq və həmkarlıq edən filologiya üzrə fəlsəfə doktoru Çingiz Sasaninin "Ədəbiyyatşünas alim R.Azadənin həyatı və yaradıcılıq yolu" adlı məqaləsində bununla bağlı maraq doğuran qeydlərdə Azadə Rüstəmovanın nəsil-şəcərəsi, ziyalı mühiti və çevrəsi haqqında müfəssəl bilgi verən tərcümeyi-hal xarakterli faktlar üzə çıxarılır: *"Azadə xanımın təhsil və ilk elmi yaradıcılıq illərində onun mənsub olduğu böyük ailədə bir qrup ziyalı, yüksək erudisiyalı alimlər, memar, rəssamlar, yazıçı və sənət adamları fəaliyyət göstərirdilər. Bu ziyalı ailə Azərbaycanın elm, mədəniyyət və incəsənətinə dəyərli töhfələr vermişlər. Bunlardan şərqşünas, tarixçi akademik Əbdülkərim Əli oğlu Əlizadə Nizaminin "Şərəfnamə" əsərinin elmi-tənqidi mətnini tərtib edib müqəddimə və izahlarla birlikdə 1947-ci ildə sabiq Azərbaycan SSR EA nəşriyyatında nəşr etdirmişdir"* [6, s. 30].

Müəllif bir nizamişünas alim-tədqiqatçı kimi akademik Əbdülkərim Əlizadənin dünya şöhrətli şair-mütəfəkkirin yaradıcılıq irsinin öyrənilməsi, tədqiqi və geniş miqyasda təbliği sahəsində mühüm xidmətlərini yüksək dəyərləndirir və nəticə olaraq belə qənaətə gələrək yazır: "*Nizaminin doğumu ilə bağlı yubiley münasibətilə çap olunan bu əsər ilk elmi-tənqidi mətn olmaqla şairin elmi-bədii və fəlsəfi yaradıcılığını öyrənmək işində dəyərli bir mənbə idi və Azadə xanımın 1947-ci ilin sentyabrında ADU-nun* (indiki Bakı Dövlət Universitetinin – N. R.) *Şərqşünaslıq fakültəsinə üz tutması onun Nizami irsinə marağının ilk əks-sədası olmalıdır. Ə.Ə. Əlizadə Nizaminin "Məxzənül-əsrar" əsərinin də elmi-tənqidi mətnini tərtib edərək 1960-cı ildə Azərbaycan SSR EA nəşriyyatında nəşr etdirmişdir. Nizaminin "Leyli və Məcnun" əsərinin də elmi-tənqidi mətnini tərtib edib Moskvanın "Elm" ("Nauka") nəşriyyatında 1965-ci ildə nəşr etdirən Əjdər Əlioğlu Ələsgərzadə də Azadə xanımla bir ocaqdan çıxmış yaxın qohumudur"* [6, s. 32].

1958-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə respublika Elmlər Akademiyasının nəzdində yaradılan Yaxın və Orta Şərq Xalqları İnstitutunun ilk direktoru vəzifəsinə Əbdülkərim Əli oğlu Əlizadənin təyin olunması barədə aidiyyatı mənbələrdə [2] müəyyən məlumatlara da rast gəlmək mümkündür. Onun instituta 1958-1963-cü illər ərzində rəhbərlik etməsi və mətnşünaslıq sahəsində tanınmış mütəxəssis olması haqqında bilgilər də həmin mənbədə öz əksini tapır.

Çingiz Sasaninin bu nəslin və ailə mühitinin Azadə Rüstəmovadan sonrakı davamçılarından Aida Feyzullayevanın, Fəridə Əzizovanın və mərhum Vəcihə Feyzullayevanın adını çəkir, onların milli ədəbiyyatşünaslıq elmimizin inkişafındakı xidmətlərindən geniş bəhs edir ki, bu da bir çoxlarına məlum olmayan fakt və həqiqətlərin üzə çıxarılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Azadə Rüstəmovanın ailə çevrəsindən, yaxın və doğmalarından əxz olunan elmə maraq, xüsusi olaraq şərqşünaslıq sahəsinin bir ixtisas səviyyəsində seçilməsi, çoxəsrlik yaradıcılıq ənənələrinə malik milli ədəbi-tarixi təcrübənin söykəndiyi əsas mənbə və qaynaqların öyrənilib üzə çıxarılmasında ən mühüm vasitələrdən bir kimi müəyyənləşməsi heç də təsadüfi hesab edilməməlidir.

Universitet illərində fars dilinin incəliklərini, zəngin klassik poetik ənənələrə söykənən

Şərq ədəbiyyatının özünəməxsus xüsusiyyətlərini o dövrün tanınmış şərqşünas alimlərindən və mütəxəssislərindən intixab edən Azadə Rüstəmova az sonra elmi taleyini bu sahə ilə bağlamağa qərar verir: "*Universitetdə beş il ərzində Məmmədağa Sultanov, Neyyer Zaman Hatəmi, Əli Azəri, Mübariz Əlizadə kimi görkəmli alim və pedaqoqlardan fars dili və ədəbiyyatını, Şərq mədəniyyət tarixini öyrənən Azadə xanım ali məktəbi fərqlənmə diplomu ilə bitirib, 1952-ci ilin sentyabrında keçmiş SSRİ EA-nın (Moskva şəhəri) aspiranturasına daxil olur"* [3, s. 12].

Azadə Rüstəmova o dövrün elitar elmi mərkəzlərindən sayılan paytaxt Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun aspiranturasına qəbul olunmasında xüsusi dəstəyi olan professor Mirzağa Quluzadə haqqında qələmə aldığı məqalədə həmin anları belə xatırlayır: *"Professor Mirzağa Quluzadə. Onun elmi fəaliyyəti haqqında bəhs etməzdən əvvəl ənənəni pozub şəxsiyyəti – insani keyfiyyətləri ilə bağlı bir neçə kövrək və hərarətli söz deməyə özümdə ehtiyac duyuram. Ehtiyac duyuram - ona görə ki, uzun illər çalışdığım, həyatımın məna və məzmununu təşkil edən Nizami adına Ədəbiyyat İnstitutunun ünvanını o – Mirzağa müəllim mənə tanıtmışdı. Bu gün M.Ə. Rəsulzadə adını daşıyan Azərbaycan Dövlət Universitetini* (indiki BDU – N. R.) *yenicə bitirib azad təyinat almışdım"* [5, s. 550].

Azadə Rüstəmova paytaxt Moskvadakı nüfuzlu elmi mərkəzdə aspirantura təhsili almaq üçün ilk mənəvi dəstək və ünvan seçdiyi məkanla bağlı təəssüratlarında maraq doğuran məqamlar diqqəti cəlb edir. Həmin məkan və ünvan akademiyanın (indiki Azərbaycan Milli Elmlər Akademiyasının – N. R.) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu idi: "*Qəzetdə sabiq SSRİ EA-nın aspiranturasına qəbul haqqında elanı oxuyub Ədəbiyyat İnstitutunun qapısını döydüm. İnstitutun direktoru Mirzağa Quluzadə mənə əsl ata qayğısı ilə yanaşdı, ürəkləndirdi və bir qrup məzunla birlikdə Moskvaya – Şərqşünaslıq İnstitutuna yola saldı. Moskvada oxuduğumuz illərdə o öz nəzərlərini heç bir zaman biz aspirantların üzərindən əskik etməzdi. Ədəbiyyat İnstitutunun elmi-təşkilati işləri ilə əlaqədar ildə iki-üç dəfə Moskvaya gəlməyi var idi və hər gəlişində də bizim qayğımıza qalır, bizi gələcək fəaliyyətimiz üçün ruhlandırır, bizə ümid, işıq bəxş edib gedirdi"* [5, s. 555].

Azadə Rüstəmovanın tədqiqatçı səriştəsi qazanmasında, geniş diapazonlu alim kimi yetişməsində Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi mühitinin müstəsna rolunu da burada xüsusi olaraq qeyd etmək lazımdır.

Bir qədər əvvəl qeyd edildiyi kimi, Azadə Rüstəmova Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda namizədlik dissertasiyasını (indiki fəlsəfə doktorluğu dissertasiyasını – N. R.) müdafiə etdikdən sonra 1957- ci ildən ömrünün sonuna qədər taleyini respublikanın aparıcı elmi mərkəzlərindən biri olan bu məbədgahla bağlamış, qırx səkkiz il burada sayılıb seçilən şöbələrin profilinə uyğun tədqiqatlar aparmış, məhsuldar və səmərəli elmi fəaliyyət göstərmişdir.

Elmi-təşkilati fəaliyyətlə yanaşı, Azadə Rüstəmova klassik Azərbaycan ədəbiyyatının və Şərq poetik təcrübəsinin aparıcı simalarının yaradıcılıq irsinin tədqiqi istiqamətində, ixtisaslı gənc mütəxəssis kadrların yetişməsində də yaxından və fəal şəkildə iştirak etmişdir. Hələ keçən əsrin 40-cı illərinə qədər Dil, Ədəbiyyat və Tarix İnstitutu kimi fəaliyyət göstərən bir qurumun adında ehtiva olunan tarixin ayrıca yox, eləcə dil və ədəbiyyatla paralel şəkildə bir araya gətirilməsi heç də təsadüfi deyildi. Dilin və ədəbiyyatın, incəsənət və mədəniyyətin ictimai-siyasi şəraitin, fəlsəfi-estetik fikrin özü də çox təbii ki, tarixi inkişaf və təkamüldən kənarda təsəvvür edil bilməz. Başqa bir baxış bucağından yanaşıldıqda, ictimai elmlərin, xüsusən tarixin özündə belə ədəbi-mədəni mühitin ümumi inkişaf mənzərəsi barədə irəli sürülən fikirlərə geniş yer verilməsi bu baxımdan təbii qarşılanmalıdır. Bu mənada ictimai-humanitar elm sahələrində çalışan bir çox müəlliflərin dil, lüğətçilik, ədəbiyyat tarixi məsələlərinə aid tədqiqatlar aparması və bu sahələr üzrə rəhbər vəzifələrə irəli çəkilməsi belə maraq doğuran faktlardan hesab oluna bilər. Təbii ki, bu sahələr kompleks halda milli ədəbi-mədəni, ictimai-tarixi, estetik-fəlsəfi fikrin inkişaf təkamülü, ayrı-ayrı mərhələləri haqqında müəyyən elmi təsəvvür yaradılmasına nəticə etibarilə gətirib çıxarırdı.

Bu baxımdan akademik Heydər Hüseynovun (1908-1950) fəaliyyətini xüsusi olaraq qeyd etmək lazımdır. O, konkret bir tədqiqat istiqaməti baxımından Azərbaycan ictimai-fəlsəfi fikir tarixi sahəsində tanınmış alim-filosof idi. Eyni zamanda o, ədəbiyyat və incəsənət tarixi, dil və lüğətçilik sahəsində tədqiqatlar aparan mütəxəssis kimi də geniş yaradıcılıq imkanlarına malik professional alim və elm təşkilatçısı idi.

Filologiya elmləri doktoru, professor Asif Rüstəmlinin "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu: yaradılması və təşəkkül mərhələləri" adlı məqaləsində bu xüsusda maraq doğuran faktlar üzə çıxarılır: *"Respublika XKS-nin 1938-ci il 8 sentyabr tarixli 4925 saylı qərarı ilə Dil və Ədəbiyyat İnstitutu Tarixdən ayrılaraq onun bazası əsasında müstəqil Nizami Gəncəvi adına Ədəbiyyat və Dil İnstitutu yaradıldı. Nizami Gəncəvi adına Ədəbiyyat və Dil İnstitutunun direktoru vəzifəsini icra etmək Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru, görkəmli filosof-alim Heydər Hüseynova həvalə olunur"* [4].

Belə bir yanaşmanı Heydər Hüseynovun şəxsində milli ədəbi-tarixi təcrübəni ictimai fikir tarixi ilə paralel və ona adekvat metodologiya əsasında tədqiqata yönəltməyin bariz nümunəsi kimi də dəyərləndirmək olar.

Burada diqqəti cəlb edən, maraq doğuran bir məqam ondan ibarətdir ki, Azadə Rüstəmovanın ədəbiyyat tarixçiliyi sahəsinə gəlişi ərəfəsində ədəbi-tarixi keçmişə, xüsusi olaraq klassik irsə kompleks halda münasibət əsas aparıcı meyar və yanaşma kimi önə çəkilir, belə tədqiq metodologiyası şübhəsiz ki, özündə həm tarixilik, həm də müasirlik kimi ədəbi-estetik kateqoriyalardan çıxış etməyi də bir tələb kimi qarşıya məqsəd qoyurdu.

Belə bir elmi fəaliyyət istiqamətinin davam və inkişaf etdirilməsi keçən əsrin 50-ci illəri üçün də dəyişməz bir yaradıcılıq vəzifəsi olaraq qalır, bu elmi mərkəzə gələn gənc mütəxəssislər klassik ənənənin varisləri kimi elmi axtarışlarını dövrün tələblərinə cavab verən bir tərzdə müəyyənlədirməyə çalışırdılar.

Azadə Rüstəmovanın akademiya sisteminə gəlişi ədəbiyyat tarixinin ikinci mükəmməl nəşrinin hazırlandığı ilk illərə təsadüf edir. "Azərbaycan ədəbiyyatı tarixi"nin nəşri gerçəkləşən bir ərəfədə Moskvada aspirantura təhsilini tamamlayan Azadə Rüstəmova o dövrün gənc elmlər namizədi kimi Bakıya qayıtması ilə bağlı xatirə tipli qeydlərində yenə bir elm təşkilatçısı və klassik ədəbiyyat üzrə tanınmış tədqiqatçı, eyni vaxtda şöbə müdiri olan professor Mirzağa Quluzadənin xeyirxahlığı, gənc mütəxəssislərə diqqət və səmimi münasibəti barədə fikirlərini dilə gətirir: *"Müdafiə edib doğma Bakımıza qayıtdım. Və elə oldu ki, Mirzağa müəllimin rəhbərlik etdiyi şöbədə - o dünyasını dəyişənə qədər eyni sahə üzrə çalışmalı oldum. Mirzağa müəllim şöbədə, yox - yalnız şöbədə deyil, bir direktor kimi bütün İnstitutda, onun hər bir əməkdaşı, kiçiyindən tutmuş böyüyünə qədər – hər birimiz üçün arxa, mənəvi dayaq idi. Şad günlərimizin şadlığına qarışır, ağır dəqiqələrimizdə öz müdrik nəsihətləri, məsləhətləri ilə qəlbimizdəki kədəri-niskili əritməyə çalışırdı"* [5, s. 555].

Azərbaycan elminin keçən əsrin 50-ci illərinin ikinci yarısını koordinasiya edən mərkəzlərdən biri hesab olunan Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda akademiklər Məmməd Arif Dadaşzadə, Həmid Araslı, Məmməd Cəfər Cəfərov, Mirzə İbrahimov, Kamal Talıbzadə, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Əziz Mirəhmədov, professorlar Mirzağa Quluzadə, Mir Cəlal Paşayev və Cəfər Xəndan Hacıyev kimi dövrün tanınmış elm xadimləri fəaliyyət göstərirdi.

Belə bir qaynar mühitdə fəaliyyət təbii ki, Azadə Rüstəmovanın elmi-nəzəri baxımdan inkişafına da öz müsbət təsirini göstərir, Azərbaycan klassik ədəbiyyatının diqqətdən kənarda qalan, öyrənilməmiş qaranlıq səhifələrinin tədqiq olunmasına ciddi marağının yaranmasına gətirib çıxarırdı. Bu baxımdan Azadə Rüstəmovanın elmi fəaliyyətinin ilk başlanğıcı hesab olunan bu dövr gələcək elmi-tədqiqat istiqamətlərinin müəyyənləşməsinə münbit zəmin hazırlayan xüsusi bir mərhələ hesab edilə bilər.

**Ədəbiyyat / *References***

1. Əlibəyli. G. Çırpınan dünyamız. Bakı: "Elm", 2000.
2. https://az.wikipedia.org/wiki/%C6%8Fjd%C9%99r_%C6%8Fl%C9%99sg%C9%99rzad%C9%99.
3. Qarayev. Y. Çağımızdan görünən orta əsrlər. AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azadə Rüstəmova, Biblioqrafik Göstərici. Bakı: "Elm" 2003.
4. Rüstəmli. A. Nizami Gəncəvi adına Ədəbiyyat institutunun yaranması və təşəkkülü. "Ədəbiyyat qəzeti", 2 mart, 2024-cü il.
5. Rüstəmova. A. Mənəvi Dünənimiz bu günün işığında. Bakı: "Elm" 2011.
6. Sasani. Ç. Çağımızdan görünən orta əsrlər. AMEA-nın müxbir üzvü, Əməkdar Elm Xadimi, professor R. Azadəyə həsr olunmuş II Beynəlxalq Elmi Konfransın Materialları, Bakı: "Elm", 2014, 15-16 dekabr.

**Личность Азадэ Рустамовой и научная среда её формирования**

**Нармин Рзаева**

**Резюме:** Статья посвящена анализу сущности научной среды, в которой формировалась личность профессора Азадэ Рустамовой, а также исследованию влияния семьи, образования и интеллектуального окружения на её развитие. Автор подчёркивает, что в становлении каждого творческого интеллигента решающую роль играют семейная атмосфера, социальная среда и интеллектуальное окружение. В этом контексте анализируются основы духовного мира и научного мышления Азадэ Рустамовой. Она выросла в семье интеллигентов, в среде, где продолжались традиции востоковедения. Личность Азадэ ханым характеризуется как утончённая, вдумчивая, скромная, обладающая развитым эстетическим вкусом и чертами сильного учёного.

В статье также описывается научная атмосфера того периода: в Институте, где работали такие выдающиеся учёные, как Гейдар Гусейнов, Маммад Ариф, Хамид Araслы, Маммад Джафар, Мирза Ибрагимов, Азадэ Рустамова направила свои исследования на малоизученные пласты классической азербайджанской литературы и сформировала собственную исследовательскую линию. Автор подчёркивает, что начало научного пути Рустамовой пришлось на период комплексного изучения литературно-исторического наследия, и эта среда сыграла важную роль в формировании как её личностной, так и научной идентичности. Статья демонстрирует, что научное мировоззрение Рустамовой, её отношение к классическому наследию и исследовательский стиль являются результатом взаимодействия семейной традиции и национальной научной среды.

**Ключевые слова:** Азадэ Рустамова, научная среда, литературная среда, учёный, личность.